

# Oktay ABDULLA

## Bu gecə

Bir zaman inciyib sən küsmüş idin,
Yuxuma nə yaxşı gəldin bu gecə!
Könlümdən qübarı, nisgili sildin,
Yuxuma nə yaxşı gəldin bu gecə!

Ruhumu, eşqimi təzdən oyatdın,
Yerlərdən göyəcən məni ucaltdın.
Min ilə bərabər ömür yaşatdın,
Yuxuma nə yaxşı gəldin bu gecə!

Ətrafın göy sular, yaşıl meşədir,
Çaylar da o gecə susub, dinmədi...
O qoynun hələ də tər bənövşədi,
Yuxuma nə yaxşı gəldin bu gecə!

Camalın bir günəş, göyün sehrisən,
Kahkəşan dünyanın qaynar təhrisən.
Baxıram göylərə, göyün mehrisən,
Yuxuma nə yaxşı gəldin bu gecə!

Bu bir möcüzədir, mən hardan bilim,
Ağzımda köz olub alışdı dilim.
Oktayı heyrətə gətirdin gülüm,
Bağrını həsrətin dəldin o gecə!!

## Bilmirəm

Qalmayıb həvəsim, tükənib təbim,
Yamanı yaxşı tək yaza bilmirəm...
Bəzən də atəşim hədəfə dəymir,
Yazdığım misranı poza bilmirəm...

Yollarım qar-boran, ömrün qışında,
Yolların ayrıcı yolun başında.
Təpərim qalmayıb ahıl yaşımda,
Qalaram payıza, yaza bilmirəm!

Məmurlar zəhmətsiz min bələn aşdı...
Şəhid anaların gözləri yaşdı.
Dərdləri sinəmdə kərsəndi, daşdı,
Qoyummu istağa, duza bilmirəm!

Yenilməz, əyilməz hər bir əsgərin,
Namərdlər gözünü örtdü səhərin...
Qəlbimdə ağrılar yarası dərin,
Qeyrətə ləkə var, yoza bilmirəm...

## Nə var ki...

İnsan oğlu insan ola, pak ola,
Deyək, gülək, yaşamağa nə var ki!
İnsanlığı, o sevgini duyam mən,
Qulluğunda qul olmağa nə var ki...

Sözü bütöv, qəlbi isti, nur, ola,
Yaradanın üstümüzdə yar ola.
Yaxşı niyyət, şirin arzu, bar ola,
Taleyinlə barışmağa nə var ki!

Bəsdi zülüm, bəsdi qorxu, ahu-zar!
Zülüm varsa olanmazsan bəxtiyar.
Bir bildiyim el məsəli, deyim var,
Utanmasan oynamağa nə var ki...

## Qalmadı

Bağışla, sevdiyim, bağışla məni,
Sinəmdə atəşim, közüm qalmadı.
Eşqimdə dolandım Məcnun sayağı,
Taqətim, təpərim, dözüm qalmadı.

Baxıram güzgüdə ağ saçlarıma,
Kiçilən, sozalan baxışlarıma.
Həsrətəm haçandan göz yaşlarıma...
Utanan sifətim, üzüm qalmadı.

Arzular möhtəşəm, arzum saf idim,
Ətəyim bəhərli bağça-bağ idim.
Axarlı-baxarlı uca dağ idim,
Nə zirvəm, nə dərəm, düzüm qalmadı!

Bu könlüm hər çiçək, hər gülə uymaz,
Eşq əhli sevgidən eşqidən doymaz.
Qəzəlxan hər şair hədəfi vurmaz,
Deməyə söhbətim, sözüm qalmadı.

Bu meydan yetənə laflar söylədig
Dindikcə susdurdu, zülüm eylədi.
Dərdlərə bir əlac, dərman demədi,
Ölsəm ki, kəfənim, bezim qalmadı!

Türküstan.- 2023.-3-9 oktyabr, №35.- S.13.